# DƏDƏ ŞƏMŞİR NİDASI

(Dastandan)

Kükrəyib incilər saçanda sazım,
Əslim qismətimi yazandan gəlir!
Bir dastan üstdə gül açanda yazım,
Fəslim Dədə Qorqud ozandan gəlir!

Çatdırmaq eşqində şana türkcəni,
Könüllər oxşayan ana türkcəni,
Sözləri bal dadan sona türkcəni,
Vəsfim Heydər oğlu sultandan gəlir!

Yolun ağın tutub haqq sorağında,
Nahaqdan gen gəzdim haqq marağında.
Sınaqlardan keçib haqq ocağında,
Dərsim Abdaldakı ürfandan gəlir!

Qalxıb Dəlidağın yaz havasından,
İstisu bəzminin naz havasından,
Burula-burula saz havasından,
Tüstüm bir alagöz ceyrandan gəlir!

Telli saz sinəmdə çağlayan dəmdə,
Yurd ilə bir gülüb-ağlayan dəmdə,
Şırğalar yaramı bağlayan dəmdə
Ləmsim Ələsgərtək sarvandan gəlir!

Bir gəraylı ilə ata mindirən,
Bir bayatı ilə atdan yendirən,
Bir qoşması ilə dağlar dindirən
Kəsbim Bozalqanlı azmandan gəlir!

Lələk yandıranda sarı sim üstdə,
Tilsim sındıranda sarı sim üstdə,
Göyçə qıy vuranda sarı sim üstdə,
Şəstim dəli Növrəs İmandan gəlir!

Mayasını alıb odlu ilhamdan,
Cənnət Kəlbəcərdən, Dəmirçidamdan,
Məhəbbət şərbətin içdiyim camdan,
Nəslim Ağdabanlı Qurbandan gəlir!

Çox vaxt gizlədəndə əfqanlarımı,
Fırtına gəzdirən tüğyanlarımı,
Qəddar zamanlara üsyanlarımı,
Bəhsim Vurğun boyda ümmandan gəlir!

Şəmşirəm, qıy vurub bu gün hər yandan,
Bir ucu Naxçıvan, biri Zəncandan,
Nəinki beşiyim Azərbaycandan,
Səsim artıq böyük Turandan gəlir!

Akif Azalp



"Aşıq Şəmşir, Dəlidağdan keçəndə,
Kəklikli daşlardan xəbər al məni!
Ceyran bulağından qızlar içəndə,
Saz tutub, söz qoşub yada sal məni!"

Səməd Vurğun